Şərq Tərəfdaşlığının (Eastern Partnership – EaP) təşəbbüsü, Avropa İttifaqının şərqdə qonşu dövlətlərlə (Azərbaycanla, Belarusiya ilə, Moldova ilə, Gürcüstanla, Ermənistanla, Ukrayna ilə) əməkdaşlığının yeni formatı kimi, ilk dəfə, İsveçdə və Polşada işlənib hazırlanmışdır.

2008-ci ilin avqust ayında, Gürcüstanda Rusiya hərbi intervensiya sözügedən prosesin sürətlənməsinə səbəb oldu və müəyyən qismdə bu təşəbbüsə Avropa İttifaqının müsbət rəyi yarandı. Müvafiq olaraq, 2008-ci ilin dekabrında Avropa Komissiyasına tapşırıldı ki, bu təşəbbüslə bağlı təkliflər təqdim etsin.

2008-cu ildə, Rusiya-Gürcüstan müharibəsi zamanı, prezident Sarkozi, Avropa İttifaqının həmin dövrkü sədr ölkəsinin – Fransa prezidenti, Rusiya-Gürcüstan müharibəsinin dayandırılmasında və atəşin dayandırılması haqqında anlaşmanın əldə edilməsində önəmli rol oynadı. Artıq müharibə başa çatdıqdan sonra, Avropa İttifaqı Gürcüstana aktiv maliyyə dəstəyi göndərdi və atəşin təkrarlanmaması məqsədilə, Gürcüstana Avropa İttifaqının monitorinq missiyası ezam edildi və bu günə qədər inzibati xəttin ətrafında Gürcüstanın Mərkəzi hökuməti tərəfindən nəzarət edilən ərazidən münaqişə zonasının ətraf ərazisində mövcud vəziyyətə monitorinqlik edir və münaqişədən zərər çəkmiş əhalinin həyat şərtləri və təhlükəsizliyinin yaxşılaşdırılmasına dəstək verir. Rusiya  Federasiyası tərəfindən atəşin dayandırılması üzrə 2008-ci il 12 avqust anlaşmasının tam yerinə yetirilmədiyinə və missiyanın Sxinvali və Abxaziya ərazilərinə buraxılmadığına baxmayaraq, missiyanın fəaliyyəti öz əhəmiyyətini itirmir, çünki bu vaxta qədər, Avropa İttifaqının monitorinq missiyası yeganə beynəlxalq mexanizmdir ki, münaqişə zonasında çalışır. Avropa İttifaqı münaqişənin tənzimlənmə prosesinə aktiv cəlb olunmuş və bu da Cenevrə dialoqu şəklində tanınır və eləcə də 2008-ci ilin12 avqust anlaşmasının bir hissəsini təşkil edir. Burada, Cenevrə  dialoqunda, Avropa İttifaqının nümayəndəsi, ATƏT və BMT-nin nümayəndələri ilə yanaşı, müştərək sədrlik funksiyasını yerinə yetirir. 2008-ci ilin oktyabrında, Brüsseldə Avropa İttifaqı və Dünya Bankının təşkilatçılığı ilə donorlar konfransında, Gürcüstana 2008-2010-cu il üçün ayrılmış yardım 4,5 milyard dolları təşkil edirdi.

2008-ci ilin dekabrın 3-də, Avropa Komissiyası Şərq Tərəfdaşlığı haqqında kommunike dərc etdi və bu da 2009-cu ilin martın 19-da Avropa Şurasının iclasında təsdiq olundu.

Şərq Tərəfdaşlığı Avropa İttifaqına üzvlük perspektivinin alternativi deyil. O, ikitərəfli və hərtərəfli əməkdaşlıq yolu ilə, tərəfdaş ölkələrin Avropa İttifaqına inteqrasiya prosesinin dərinləşdirilməsinə, ümumi dəyərlərin yayılmasına, regionda təhlükəsizliyin və iqtisadi inkişafın gücləndirilməsinə dəstək verir. Şərq Tərəfdaşlığı çərçivəsində, əməkdaşlıq iki istiqamətdə cərəyan edir: ikitərəfli və hərtərəfli əməkdaşlıq formatında. İkitərəfli əməkdaşlıq Avropa İttifaqı və hər bir tərəfdaş ölkə arasında əməkdaşlığın növbəti dərinləşməsini nəzərdə tutur və bu da əhatə edir: assosiativlik haqqında anlaşmanın

(Association Agreements) imzalanması yolu ilə yeni, daha geniş əlaqə münasibətlərinin formalaşmasını.

Hərtərəfli əməkdaşlığın məqsədi isə, yeni formatı təmin edir və ümumi maraqların sahəsində əməkdaşlıq və çağırışlarla ayaqlaşmaq imkanını verir. Belə bir format təhlükəsizliyin, miqrasiyanın, ticarətin, nəqliyyatın, energetikanın, ətraf mühitin müdafiəsi və başqa sahələrdə birgə layihələrin həyata keçirilməsi yolu ilə regionda əməkdaşlıq proseslərinin inkişafı məqsədini daşıyır.